**COP29 çərçivəsində "Gənc liderlik" forumu keçirilib**

COP29 çərçivəsində Gənc Məruzəçilər Akademiyası (YNA) tərəfindən "Gənc liderlik" forumu təşkil olunub.

AZƏRTAC xəbər verir ki, forum müxtəlif yanaşmaların qarşılıqlı əlaqəsini, təsirlərini və bir-birini necə tamamladığını öyrənərək, nəsillərarası ədaləti təmin etmək və qlobal iqlim siyasətini yönləndirmək üçün müzakirələr, təşviqat, lobbiçilik, birbaşa fəaliyyət və digər sahələrdə çalışan ən önəmli gənc iqlim liderlərini bir araya gətirib.

Tədbirdə ekoloji hüquq müdafiəçisi Enhun Biyambadorj, Fələstin gənclərini COP29-da təmsil edən Məhəmməd Usrof, BMT-nin İqlim və ətraf mühit üzrə gənclərinin nümayəndəsi Siqurt Seindal Krabbe, Uqandada fəaliyyət göstərən "Yaxşı Həyat" beynəlxalq təşkilatının icraçı direktoru Denis Akampurura və digər gənclər çıxış edərək iqlim dəyişiklikləri ilə bağlı mübarizə yollarından danışıblar. Müzakirədə gənclərin səslərinin harada, necə və hansı şəkildə ən təsirli formada eşitdirə biləcəyi və uğurla iqlim tədbirləri həyata keçirilməsi imkanları araşdırılıb.

Nəzərə çatdırılıb ki, iqlim dəyişikliyinin qarşısını almaq və sıfır emissiyaya nail olmaq üçün gənclər fəal olmalı və problemi beynəlxalq təşkilatlar, milli hökumətlər qarşısında qaldırmalıdırlar.

**AZƏRTAC**
**2024, 11 noyabr**